**Azərbaycan Respublikası**
**Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası**

**QƏRAR № 3**

Bakı şəhəri, "07" 04 2017-ci il

Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası Rauf Əli oğlu Pənahovun sədrliyi ilə "Nurlan-K" firmasının Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasından Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasına daxil olmuş, 06.03.2017-ci il tarixdə qeydiyyatdan keçmiş F-3/2-039 nömrəli müraciətinə baxaraq,

**MÜƏYYƏN ETDİ:**

1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 28.04.2014-cü il tarixli, 2-1(81)-71/2014 saylı qərarı ilə iddiaçı "Nurlan-K" firmasının Əmlak Məsələləri Dövlət Komitəsinə və Bakı Şəhər İcra Hakimiyyətinə qarşı iddiası təmin edilmiş, Bakı şəhəri, S.Vurğun küçəsi 31 ünvanında sökülmüş 19,8 kv.m qeyri-yaşayış sahəsinin əvəzinə həmin ünvanın ərtafında sahəsi 20 kv.m olmaqla qeyri-yaşayış sahəsinin "Nurlan-K" firmasına verilməsi Bakı Şəhər İcra Hakimiyyətinə həvalə edilmişdir.

1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin qeyd olunan qərarı Bakı Apellyasiya Məhkəməsinin 19.05.2015-ci il tarixli, 2-1(103)-543/15 saylı və Azərbaycan Respublikası Ali Məhkəməsinin 13.08.2015-ci il tarixli, 2-1(102)-952/2015 saylı qərarları ilə dəyişdirilmədən saxlanılmışdır.

Məlum olduğu kimi, Bakı Şəhər İcra Hakimiyyətinin Başçısının 16.02.2011-ci il tarixli, 76 saylı sərəncamı ilə, Bakı şəhərinin Baş Planının icrasının təmin edilməsi, Heydər Əliyev Sarayının arxasındakı ərazidə park-bağ kompleksinin salınması və Möhtərəm Prezidentimizin Bakının sosial-iqtisadi inkişaf proqramına uyğun olaraq müvafiq göstərişinə əsasən şəhərin abadlaşdırılması ilə əlaqədar S.Vurğun, Ş.Bədəlbəyli, M.Əliyev, D.Əliyeva, R.Rza, Ş.Əzizbəyov, S.Rəhimov, İ.Səfərli, Təbriz

Xəlil Rza oğlu, M.İbrahimov küçələrinin əhatəsində yerləşən yaşayış və qeyri-yaşayış sahələrindən əhalinin köçürülməsi Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilmişdir.

Qeyd olunan işlərin həyata keçirilməsi ilə əlaqədar Maliyyə Nazirliyi ilə əldə olunmuş razılığa əsasən və həmin ərazidə yerləşən yaşayış və qeyri-yaşayış sahələrinin qiymətləndirilməsi ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinin 14.02.2011-ci il tarixli, 110120900827 saylı məktubunda göstərilən ünvanlarda yerləşən mülkiyyətçilərə məxsus yaşayış və qeyri-yaşayış sahələrinin hər kv.m üçün 1500 manat məbləğində vəsait ödənilməsi nəzərdə tutulmuşdur.

Lakin iddiaçı "Nurlan-K" firması mülkiyyətində olan 19,8 kv.m qeyri-yaşayış sahəsi üçün kompensasiya almaqdan imtina etmiş, daşınmaz əmlakın yerləşdiyi sahəyə yaxın ərazidə sahəsi 20 kv.m olan başqa qeyri-yaşayış sahəsinin verilməsini məhkəmədən tələb etmişdir.

Dövlətə məxsus qeyri-yaşayış sahələri üzərində sərəncam vermək səlahiyyətinin Əmlak Məsələləri Dövlət Komitəsinə məxsus olduğunu nəzərə alaraq, Bakı Şəhər İcra Hakimiyyəti 27.10.2015-ci il tarixli, 7-4556/17 saylı məktubla Əmlak Məsələləri Dövlət Komitəsinin sədri cənab Kərəm Həsənova müraciət edərək, məhkəmə qərarının icrası məqsədilə Bakı şəhəri, S.Vurğun küçəsi 31 ünvanına yaxın ərazidə sahəsi 20 kv.m olan digər qeyri-yaşayış sahəsinin "Nurlan-K" firmasına verilməsində köməklik göstərilməsini xahiş etmişdir.

Lakin Əmlak Məsələləri Dövlət Komitəsindən Bakı Şəhər İcra Hakimiyyətinə daxil olmuş 19.11.2015-ci il tarixli, 150120707737 saylı cavab məktubunda Bakı şəhəri, S.Vurğun küçəsi 31 ünvanına yaxın ərazidə boş və istifadəsiz qeyri-yaşayış sahəsinin müəyyən edilmədiyi bildirilmişdir.

Yuxarıda göstərilən səbəblərdən icrası tələb olunan məhkəmə qərarının icrasını təmin etmək mümkün olmamışdır.

Hüquq şöbəsinin müdiri-komissiyanın üzvü Sani Nəsibov yuxarıda göstərilən faktları ardıcıllığı ilə sadalayaraq komissiyaya geniş məlumat verdi.

Komissiyanın üzvü- Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəis əvəzi Akif Abdullayev qeyd etdi ki, məsələnin həlli məqsədilə idarəmizdə müvafiq araşdırılma aparılmışdır. Yekun olaraq onu bildirirəm ki, biz "Nurlan-K" firmasına Nəsimi rayonu, şimaldan H.Seyidzadə küçəsi ilə, şərqdən 7A saylı yaşayış binası ilə, cənubdan boş sahə ilə, qərbdən 11 saylı yaşayış binası ilə əhatə olunmuş ərazidə 20 kv.m və ya Binəqədi rayonunda şimaldan Adil Məmmədov küçəsi ilə, qərbdən məhəlladaxili yol ilə,

cənubdan boş ərazi ilə, şərqdən yaşıllıq ilə əhatə olunmuş ərazidə 20 kv.m torpaq sahəsi təklif edə bilərik.

Komissiyanın sədri Rauf Pənahov bildirdi ki, belə olduğu təqdirdə məsələni komissiyanın müzakirəsinə çıxararaq qərar vermək olar.

Göstərilənləri və Azərbaycan Respublikası Prezidentinin 762 nömrəli, 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə" nin 7.3.3-cü bəndini rəhbər tutaraq,

**QƏRARA ALINDI:**

1. Qüvvədə olan məhkəmə icrası ilə əlaqədar, "Nurlan-K" firmasına Nəsimi rayonu, şimaldan H.Seyidzadə küçəsi ilə, şərqdən 7A saylı yaşayış binası ilə, cənubdan boş sahə ilə, qərbdən 11 saylı yaşayış binası ilə əhatə olunmuş ərazidə 20 kv.m və ya Binəqədi rayonunda şimaldan Adil Məmmədov küçəsi ilə, qərbdən məhəlledaxili yol ilə, cənubdan boş ərazi ilə, şərqdən yaşıllıq ilə əhatə olunmuş ərazidə 20 kv.m torpaq sahəsi təklif edilsin.

2. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının Katibliyi bu Qərarın surətini Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına və "Nurlan-K" firmasına göndərilməsini təmin etsin.

**Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının sədri** **Rauf Pənahov**